# AZƏRBAYCAN RESPUBLİKASININ ALTERNATİV VƏ BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİ ÜZRƏ DÖVLƏT AGENTLİYİ

# Ə M R

№ 28

Bakı şəhəri "11" 10 2016-cı il

**"Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 3 oktyabr 2016-cı il tarixli 2358 nömrəli Sərəncamının icrası barədə**

"Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 3 oktyabr 2016-cı il tarixli 2358 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi haqqında Əsasnamə"nin 5.5.7-ci bəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya"nın 6-cı bəndinin "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair Fəaliyyət Planı"nın 6.2.1, 6.2.6, 6.5.1.5 və 6.9.2-ci yarımbəndlərində qeyd olunan tədbirlərin həyata keçirilməsi ilə bağlı Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

2. Tədbirlər Planında nəzərdə tutulan işlərin həyat keçirilməsi üzrə əlaqələndirici struktur bölmə Agentliyin Enerji siyasəti, enerji effektivliyi və uçotu şöbəsi müəyyən edilsin.

3. Enerji siyasəti, enerji effektivliyi və uçotu şöbəsi Agentliyin struktur bölmələri və tabeliyindəki qurumla birlikdə Tədbirlər Planında nəzərdə tutulan işlərin icrasını təmin etsin, görülən işlər barədə məlumatları mütəmadi olaraq Agentliyin sədr müavini N.Yusifbəyliyə və rübdə bir dəfə Agentliyin İqtisadiyyat və dövlət proqramları şöbəsinə təqdim etsin.

4. İqtisadiyyat və dövlət proqramları şöbəsi "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya"nın 6-cı bəndinin "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair Fəaliyyət Planı"nın 6.2.1, 6.2.6, 6.5.1.5 və 6.9.2-ci yarımbəndlərində qeyd olunan tədbirlərin həyata keçirilməsi ilə bağlı məlumatların rübdə bir

Əsli ilə düzdür

dəfə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim edilməsini təmin etsin.

5. Ümumi işlər üzrə sektor bu əmrin surətini Agentliyin aparatının struktur bölmələrinə və tabeliyindəki quruma elektron qaydada çatdırılmasını təmin etsin.

6. İnnovasiyalar və informasiya texnologiyaları şöbəsi Agentliyin internet səhifəsində bu əmrin surətinin yerləşdirilməsini təmin etsin.

7. Əmrin icrasına nəzarət Agentliyin sədr müavini N.Yusifbəyliyə həvalə edilsin.

Sədr Akim Bədəlov

Əsli ilə düzdür

Alternativ və Bərpa Olunan Enerji
Mənbələri üzrə Dövlət Agentliyinin
11.10. 2016-cı il tarixli 28 nömrəli
əmri ilə təsdiq edilmişdir

**“Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya”nın 6-cı bəndinin “Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair Fəaliyyət Planı”nın 6.2.1, 6.2.6, 6.5.1.5 və 6.9.2-ci yarımbəndlərində qeyd olunan tədbirlərin həyata keçirilməsi ilə bağlı Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin**

**TƏDBİRLƏR PLANI**

| № | Sərəncam № | Tədbirin adı | Gözlənilən nəticələr | İcraçı | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|---|---|
| **Bioloji müxtəlifliyin monitorinqi sisteminin təkmilləşdirilməsi** | | | | | |
| 1.1. | 6.2.1. | Beynəlxalq təcrübəyə əsaslanan mütərəqqi üsullardan istifadə etməklə, monitorinq sisteminin təkmilləşdirilməsi | Bioloji müxtəlifliyin monitorinqi sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflər paketinin icrası təmin ediləcəkdir | - Enerji siyasəti, enerji effektivliyi və uçotu şöbəsi,<br>- Monitorinq və nəzarət şöbəsi,<br>- İnnovasiyalar və informasiya texnologiyaları şöbəsi | 2017-2018 |
| 1.2. | 6.2.6. | Bioenerji resurslarının dəqiq uçotunun aparılması | Bioenerji resurslarının səmərəli istifadəsi istiqamətində görülən işlər nəticəsində ümumi ekoloji tarazlıq təmin ediləcəkdir | - Enerji siyasəti, enerji effektivliyi və uçotu şöbəsi,<br>- Alternativ və bərpa olunan enerji mənbələri və ətraf mühitin qiymətləndirilməsi şöbəsi,<br>-İnnovasiyalar və informasiya texnologiyaları şöbəsi,<br>- “Azalternativenerji”MMC | 2017-2020 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **2020-ci ilədək bioloji müxtəlifliyə mənfi təsirlərin və təhlükələrin aradan qaldırılması və ekoloji vəziyyətin bioloji müxtəlifliyin davamlılığını təmin edəcək səviyyəyə çatdırılması** | | | | | |
| 1.3. | 6.5.1.5 | Kənd təsərrüfatı və məişət tullantılarından bioenerji alınması imkanlarının araşdırılması və həmin enerjidən istifadənin təşviq edilməsi | Araşdırma müsbət nəticə verəcəyi halda, kənd təsərrüfatı və məişət tullantılarından bioenerji alınacaq və bu enerjidən istifadə olunacaqdır | - Enerji siyasəti, enerji effektivliyi və uçotu şöbəsi,<br>- Alternativ və bərpa olunan enerji mənbələri və ətraf mühitin qiymətləndirilməsi şöbəsi,<br>- İnvestisiya və layihələrin idarə olunması şöbəsi,<br>- "Azalternativenerji"MMC | 2017-2020 |
| **Bioloji müxtəlifliyin qorunmasının və davamlı istifadəsi üçün adekvat resursların təmin edilməsi** | | | | | |
| 1.4 | 6.9.2. | Bioloji müxtəlifliyin qorunması məqsədi ilə regionlarda alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi | Regionlarda alternativ və bərpa olunan enerji mənbələrindən istifadə genişləndiriləcəkdir | - Enerji siyasəti, enerji effektivliyi və uçotu şöbəsi,<br>- Alternativ və bərpa olunan enerji mənbələri və ətraf mühitin qiymətləndirilməsi şöbəsi,<br>- İnvestisiya və layihələrin idarə olunması şöbəsi,<br>- "Azalternativenerji"MMC | 2017-2020 |